*Azərbaycan dili və ədəbiyyat tədrisi*
2025 / Cild 71, Say 1 / 72–79
https://doi.org/10.48445/s6782-3946-3758-n

# XIX əsrin sonu – XX əsrin əvvəllərində uşaq nəsrində təhkiyə formulları

***Şöhrət Məmmədova*** [1]

**XÜLASƏ**
*XIX əsrin ədəbi zənginliyində bədii nəsrin uşaq fantaziyasını əksetdirmə spesifikasının aydınlaşması diqqətçəkici məsələlərdən biri idi. Çünki bütün parametrlərdə özünü göstərən hərəkətlilik yalnız ictimai-siyasi və dini-ideoloji aspektlərlə məhdudlaşmırdı. Ədəbi-mədəni mühit bu oyanışda və milli özünüdərkin formalaşdırdığı müstəqillik mücadiləsində elm, təhsil, tərbiyə, maarif məsələlərini də mühüm amil kimi diqqət önünə gətirirdi. Yüzilliklər boyu davam edən proseslər dinamik xarakteri ilə qarşıdurmalara, yeni tendensiya və mübarizələrin yaranmasına şərait yaradırdı. Bu proseslər gənc nəslin tərbiyəsi istiqamətində görüləcək işləri bir zərurət kimi ortaya qoyurdu. Yeni tipli məktəblərin yaranması, ana dilinin tədrisə daxil edilməsi, qadınların təhsilə cəlbi və uşaq dərsliklərinin nəşri ilə bağlı məsələlər tarixi təcrübələrə əsaslansa da, eyni zamanda oyanışları, dünya düzənində gedən prosesləri nəzərə alaraq, zərurətə çevirirdi. Bütün bunlar uşaqların və yeniyetmələrin milli ruhda tərbiyəsini, etnik əxlaqi-dəyərlərin əsas amil kimi mənimsədilməsini zərurətə çevirirdi. Poeziyanın fəaliyyət təsiri bir qədər ləng getsə də, nəsrdə bu proses müxtəlif səviyyələrdə davam etdirilirdi. Bütünlükdə bunların bir azadlıq problemi kimi mahiyyətinin açıqlanması ədəbi-nəzəri fikrin qarşısında duran məsələlərdən biridir.*

**AÇAR SÖZLƏR**
*uşaq nəsri, nağıl, əfsanə, rəvayət, hekayə, təhkiyə formulları*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 10.12.2024
Qəbul edilib: 22.02.2025

[1] Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0006-6553-6385 | sohret.nesirova24@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teachİng of Azerbaijani Language And Literature*
2025 / Volume 71, Issue 1 / 72–79
https://doi.org/10.48445/s6782-3946-3758-n

# Formulas of Investigation in Children's Prose of the End of the 19th and Early 20th Centuries

***Shohrat Mammadova*** [1]

**ABSTRACT**
*One of the remarkable issues in the wealth of the 19th century is the clarification of the specifics of artistic prose reflecting children's fantasy. Because the mobility that manifests itself in all parameters is not limited only to those in social-political, religious-ideological aspects. The literary and cultural environment brought to the fore the issues of science, education, education and enlightenment as important in this awakening and the struggle for freedom brought forth by national self-awareness. The processes that continued for a century created conditions for confrontations, new trends and struggles with their dynamic nature. And these made the work to be done in the direction of education of the young generation as a necessity. The creation of new type of schools, the introduction of mother tongue to education, women's education, children's textbooks, etc. if the issues were based on historical experience in one direction, awakening on the other line made it necessary to proceed from the processes taking place in the world order. All this made it necessary to educate children, babies, and teenagers in the national spirit and assimilate ethnic moral values as the main thing. The work done by poetry was continued in prose at different levels, albeit somewhat slowly. As a whole, the clarification of what they mean as a matter of freedom is one of the issues facing the literary-theoretical opinion.*

**KEYWORDS**
*children's prose, fairy tales, legends, narratives, stories, edification formulas*

**ARTICLE HISTORY**
Received: 10.12.2024
Accepted: 22.02.2025

[1] Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan. https://orcid.org/0009-0006-6553-6385 | sohret.nesirova24@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

**Giriş**

Azərbaycanın çar Rusiyası tərəfindən işğalı xalqın ictimai-siyasi və ədəbi-mədəni tarixində xüsusi bir mərhələni təşkil edir. Baş alıb gedən tendensiya və qarşıdurmalar bütün səviyyələrdə hərəkətlilik üçün əsas faktor idi. Məktəb, təhsil, tərbiyə, ana dilli dərsliklər və digər sahələrdə atılan addımlar gənc nəsli milli düşüncə ruhu ilə formalaşdırmağı əsas məqsəd olaraq müəyyənləşdirdi. Xalqın zəngin həyat təcrübəsi, etnoqrafik yaddaşı, folklor mədəniyyəti, ailə institutunun müqəddəs əxlaq kodeksi bu prosesdə bir normativ olaraq müstəsna funksiya ilə diqqət önünə gəlir. Ədəbiyyatın yazılı qolu, bütünlükdə ziyalı mühitin oyanışının avanqardı olaraq əsaslı işlərə öz imzasını qoydu. Bədii düşüncə nəzm mühitində sərgilədiyi mənzərəni nəsr sahəsində də eyni ahənglə tətbiq edərək gərəkli addımlar atdı.

**Əsas hissə**

**Uşaq nəsrində epik təhkiyə formulları**

Rəşid bəy Əfəndizadə, Məhəmməd Həsən Əfəndizadə, Sultan Məcid Qənizadə, Əlisgəndər Cəfərzadə, Cəfər Bünyadzadə, Ağəli Qasımov, Əli Səfa, Məhəmməd Qarayev, Ağabəy İsrafilbəyov, Həsən Şeyxzadə Reyalist, Hacı Səlim Səyyah Qasımzadə, Əsəd Həsənzadə, Əliməmməd Mustafayev, Ağahəsən Mirzəzadə, Hacı Gözəlov, Əbdürrəhman Dai, Abid Rəhimzadə, Əlimişan Hüseynzadə, Əlisəttar İbrahimov, Abid Mətləbzadə və bu kimi digər ədiblərin uşaqlar üçün yaratdığı nəsr örnəkləri sırf zəruri ehtiyaclardan yaranırdı. Onların ana xəttini etnopotensiya səviyyəsini təşkil edən və mənbəyi folklordan gələn ifadə üsullarının əsas götürülməsi təşkil edirdi. "Ənənəvi sxolastik didaktik mövzulardan, təlqinlərin çılpaq və birbaşa ifadəsindən, quru, şirəsiz, tamsız deyim tərzindən yaxa qurtarmağın birinci və etibarlı dayağı xalq ədəbiyyatı olur.

Epiklik, təhkiyənin mənsur çaları, forma müvafiqliyi, hadisələri və obrazları təsvir imkanlarının uyğunluğu uşaq nəsrini lətifələr, rəvayətlər, az da olsa dastanlar (çox nadir hallarda əfsanələr), xüsusilə də nağıllarla bağlayır. Həmçinin atalar sözləri və məsəllərdəki ideyalar bəzən uşaq yazıçısının diqqətini cəlb etdiyindən, o öz əsərinin süjetini birbaşa hər hansı atalar sözü və məsəldəki ideyaya uyğun qurur" [8, s. 72 – 73].

Ümumiyyətlə, uşaq ədəbiyyatı və özünəməxsusluğu ilə diqqəti cəlb edən nəsr örnəkləri bütün spektrləri ilə stixial şəkildə folklordan gələnlərlə təmas halında, qarşılıqlı faydalanmalarla zənginləşmə prosesində özünü göstərir.

Zənginləşmənin polifonik axarı periferik məzmunu ilə metatekstuallıq səviyyəsində nağıl, rəvayət, lətifə, təmsil, atalar sözü, məsəl formullarını bir tərəf olaraq işarələməklə

yeni deyim və üslub kontekstində qəlibləşmələrin də özünü göstərməsini qaçılmaz edir. Bu təkcə Azərbaycan uşaq bədii nəsri üçün xarakterik hal olmayıb, bütünlükdə dünya xalqlarında özünü göstərən bir məsələdir. Ədəbi-mədəni axarın ümumi məzmunu bir neçə istiqaməti diqqət önünə gətirir. Birincisi, folklordan gələn örnəklərin, daha doğrusu, xalq arasında dolaşan nümunələrin toplanıb kitab halına salınması məsələsidir. Digər bir xətt isə uşaq yazıçılarının xalq ədəbiyyatı zənginliklərindən istifadə etməklə gərəkli ədəbi nümunələr yaratması tendensiyasıdır. Ədəbi-mədəni prosesdə özünü göstərən istiqamətlərdən biri zəngin folklor mədəniyyətindən yararlanmaqla orijinal nağıl, nağıl-rəvayət, nağıl-hekayə yaratmaq meylidir. Bütün bunlar məsələnin mahiyyət səviyyəsində təkcə məzmun qatı ilə formalaşmasını diqqətə gətirməklə məhdudlaşmır; burada ikinci tərəf ayrı-ayrı janr formullarından yerinə və məqamına görə istifadə edilir.

R. Əfəndizadənin “Çobanın qızı”, “İnsanlar bir-birinə möhtacdırlar”, “Qarışqaların ittifaqı”, M. Əfəndizadənin “Bağdadlı Cəfərin hekayəti”, S.M.Qənizadənin “Qurban bayramı”, Ə. Cəfərzadənin “Mərhəmətli Fatma”, C.Bünyadzadənin “Məktəbdə”, Ə. Fəhminin “Sərsəm kişi, yaxud bir ovuc, yarım ovuc”, “Kəndlilərin baltaları”, “İt çörək yeməz, siçan polad yeyər”, “Qaçaq və kəndlilər”, “Dəvə zəmidə”, “Taya və kəndlilər”, Ə. Səfanın “Düzlük” və digər hekayələri öz məzmun qatı və struktur elementləri ilə əsaslı bir müəyyənliyə bağlanır. Məsələn, R. Əfəndizadənin “Çobanın qızı” nağıl-hekayəsi etnik-mənəvi dəyərlər baxımından üfüqi və şaquli müstəvidə olanları əhatələmək gücü ilə spesifikləşir.

“Padşahlardan biri qədim zamanda evlənmək üçün harada gözəl və yetişmiş qız görsə, onu almaq mənzurilə onun əxlaq və ətvarını təftiş eləyirdi. Bir gün şikara gedərkən çoban qızını səhrada mal otaran görüb bunun gözəlliyi və qəddi-qaməti şahın xeyli xoşuna gəlir və dayanıb birdən bir neçə suallar eləyir:

– Kimsən? Atan kimdir? Hansı kənddənsən? Peşəniz nədir?

Qızın bu suallara verdiyi cavabından, vücudunda zahir olan qabiliyyət və istedadından padşah həzzmənd olub getdi isə bir neçə gündən sonra özü çobanın yanına gəlib sual elədi:

– Ey çoban, Allahın əmri ilə qızını mənə nigah edərsənmi?

Çoban:

– Bir qız sənə qurbandır, – deyib cavab verdi.

Ondan sonra padşah yönəlib qızdan sual eylədi ki, mənə gələrsənmi?

Qız da:

– Gələrəm, – deyib cavab verdi.

Padşah çobanı və qızını istimzac edəndən sonra qıza dedi ki, barigahımda xoşbəxt

olmaq istəyirsən isə gərək mənim əmrimə müti olub qarşısına söz gətirərək kəcrah olmayasan. Bu şərtə də qızdan razılıq alandan sonra padşah toy tədarükü görməyə əmr edib getdi" [1, s. 166].

Epik təhkiyənin folklordan gələn zənginlikləri üzərində nizamlanan bu məzmun xətti "qədim zamanda", "bir gün" və s. zaman formulları ilə bədii mətndə bir əsrarəngizlik yaradır. Ümumiyyətlə, başlanğıc formulları, zaman və məkan formulları, keçid formulları və digər səviyyələrdə özünü göstərən modelləşmə bütün tərəfləri ilə nağıllardan gələn zənginliyə köklənir. Ədibin "Yüz yaşında bağban", "Quşların mənfəəti", "Uşaqların meşədəki əhvalatı", "Doğma yurd", "Arsız uşaq və qarışqa", "Padşahın nədimi", "Pişik və kəsəyənin hekayəti", "Eşşək və at", "Ədalətli padşah", "İki qurd və tülkü", "Qaranquş və sərçə" və digər bədii nəsr nümunələri uşaq düşüncəsini əks etdirmək baxımından mükəmməl təsəvvür formalaşdırır. R.Əfəndizadənin dil zənginliyindən, sintaktik fiqurlardan yerinə və məqamına görə yüksək ustalıqla istifadə etməsi onun yazı manerası haqqında dolğun məlumat verməklə yanaşı, ədəbiyyatdakı mövqeyini də göstərir.

**Uşaq nəsrinin folklor qaynaqları**

XIX əsrin sonu – XX əsrin əvvəllərindəki ədəbi zənginlik maariflənmə işinin reallaşması ilə bağlı idi. "Maarif xadimləri və onların məslək dostları olan müəllimlər daha çox dərslik və dərs vəsaitləri hazırlayır, təlim-tərbiyə işinə xüsusi qayğı ilə yanaşır, ədəbi-ictimai fəaliyyətlərini bu istiqamətə yönəldirdilər. Onların bədii əsərlərində də daha çox uşaqların həyatından: əxlaq və əhvallarından, gələcəyə inamlarından, arzu-istəklərindən, çətinliklərindən bəhs edilirdi. R. Əfəndiyev, S.S.Axundov, A. Şaiq, Ü. Hacıbəyov, F. Köçərli, S. M. Qənizadə, Y. V.Çəmənzəminli, İ. Musabəyov kimi maarifpərvər ziyalı və yazıçıların bu sahədə müstəsna xidmətləri olmuşdur" [9, s. 104]. Bu xidmətlər bütün tərəfləri ilə problemlərin həllinə və yaranmış çətinliklərin aradan qaldırılmasına yönəlmişdi. Öz qaynağını xalq düşüncəsindən alan əhvalat və hekayətlər, digər xətdə el ağsaqqallarının dilindən çıxış etməklə spesifiklik sərgiləyir və əvəzsizlik qazanır. M. Əfəndizadənin "Bağdadlı Cəfərin hekayəti" əsərinin başlanğıc formulu nağıl özünəməxsusluğu ilə diqqəti cəlb edir.

"Keçmişdə Bağdad şəhəri xəlifələr paytaxtı idi. Buna görə Bağdad xeyli təraddüdlü və dövlətli bir şəhər idi. O əsrdə Bağdadda Cəfər adında bir dövlətli sövdəkar var idi ki, var-yoxunu artıq zəhmət və doğruluq ilə qazanmışdı. Cəfərin öz övrəti Xədicə ilə güzəranları artıq xoş keçib övlad fikrindən başqa ayrı bir qüssə və qəmləri yox idi" [5, s. 8].

Burada dastan və nağıllardan gələn formullar bədii mətnə əsrarəngizlik qatır və hadisələr övladsızlıq kontekstində eyni məfkurəyə bağlanır.

Xalq ədəbiyyatında insani dəyərlərin aşılanması müxtəlif formalarda – nağıl, əfsanə, rəvayət, dastan və s. nümunələrdə özünü göstərən modellərdən yararlanmaqla diqqət önünə gəlir. Övladsızlıq problemi ilə əlaqədar çox sayda örnəklər vardır və hər biri bu problemlərin həllini xeyirxahlığa, ac qarınları doydurmağa, borcluları borcundan qurtarmağa bağlayır. "Kitabi-Dədə Qorqud", "Qurbani", "Tahir və Zöhrə", "Arzu və Qənbər" dastanları bunun bariz örnəkləridir. Bu nağıl-hekayədə də eyni motivin funksional formasını görürük: "Cəfər Allah-Təala həzrətlərinə təşəkkür edib yenə möhtaclara, pulsuz tələbələrə, yetim uşaqlara və dul övrətlərə qabaqkından artıq kömək etməyə başladı. Bir müddətdən sonra Cəfərin Xədicədən iki oğlu oldu. Oğlanları körpə ikən Cəfər bərk naxoşladı və naxoşluğu günbəgün şiddət etdi. Cəfərin düçar olduğu naxoşluqdan qurtaracağına əsla ümidi yox idi. Ölüm yavuqlaşdıqda övrəti Xədicəni çağırıb dedi:

– Səndən xahiş edirəm ki, mənim uşaqlarımın təlim və tərbiyəsində üç ümdə və gözəl sifətlərə artıq diqqət edəsən: əvvəlinci doğruluq, ikinci zəhmətkeşlik, üçüncü zəhmətkeşlərə köməklik etmək" [5, s. 6].

Göründüyü kimi, zəngin təcrübəyə, xalq düşüncəsindəki etnik dəyərlərə bağlanan bu motiv övlad tərbiyəsi kontekstində əvəzsiz bir örnəkdir. Atalar sözləri və məsəllər, rəvayət, nağıl, uşaq oyunları, xalq mərasimləri bir aspektdə mənəvi dəyərlərin təlqin və təbliğinə köklənir. Uşaq bədii nəsri bunları bütün məzmunu ilə geniş auditoriyaya təqdim etməyi hədəfləyir. Doğruluq, zəhmətkeşlik və əməyi qiymətləndirmə baxımından qabardılan bu fikirlər öz qaynağını zəngin həyati təcrübədən götürür. "Bütün xalqlar, filosoflar və pedaqoqlar insanın həyatında əməyin rolunu dönə-dönə qeyd etmişlər. Qədim Roma filosofu Senekaya görə, nəcib ağıllar əməklə cilalanır" [11, s. 222]. M. Əfəndizadənin "Bağdadlı Cəfərin hekayəti" də mətn formulası və məzmunu ilə xalq təsəvvüründəki dəyərləri bir məram olaraq çatdırmağa köklənir.

"Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları XX yüzilliyin əvvəllərində uşaq ədəbiyyatının zənginləşməsində, eləcə də təlim, tərbiyə, təhsil problemlərinin həllində müstəsna funksiya ilə özünü göstərir. Bədii nəsrin yaradıcı axtarışlarında orijinal örnəklər də sənətkarlıq baxımından mühüm əhəmiyyət kəsb edir. C. Bünyadzadənin "Məktəbdə" adlı uşaq hekayəsi müəllim və şagird arasında söhbət (dialoq) səviyyəsində maraqlı sual-cavablarla səciyyələnən və məsələnin mahiyyətini əksetdirmə baxımından təqdim edən tipik örnəkdir. Müəllimin "dünyada insan üçün ən əziz olan şeylərdən nələri bilirsiniz?" sualına şagirdin cavabı:

"– Ən əziz şeylərdən biri vətəndir", – deyə söyləməsi sonrakı sual və cavablar, həm də müzakirə üçün başlanğıc funksiyasını yerinə yetirir. Məktəb, vətən, millət, elm, dövlət, namus ətrafında olan müzakirələr özlüyündə bütün zamanları və həmin dövrün

reallığını daha çox qabartması ilə səciyyələnir. Hekayədə vurğulanan digər bir məqam məktəb ətrafında olan mülahizələrdir.

“Müəllim: – Afərin, oğlum! Daha da bilirsənmi?

− Bəli, ən əziz şeylərdən biri və birincisi məktəbdir ki, bizi vəhşilikdən çıxardıb adam edən də budur” [2, s. 6].

Orijinal bir üslub sərgiləyən bu bədii nümunə sonluqda həyat haqqında ümumiləşdirici mülahizələrlə və yüksək təfəkkür intelleksiyasına dayanan sonluqla səciyyələnir.

“Müəllim: – Bəli, həyat üçün mənim fikrim budur ki, həp vətənsiz, millətsiz, elmsiz, dövlətsiz, namussuz həyatın olmaması olmasından daha gözəldir!

Müəllim: − Mərhəba, oğlum, öylədir!” [2, s. 7]

Bütünlükdə bunlar öz məzmunu və ideya səciyyəsi baxımından uşaq tərbiyəsinə, onların təsəvvürlərini əhatələməyə, milli-mənəvi dəyərləri aşılamağa köklənir. Bunların ifadə formaları isə inisial, medial səviyyəsində folklordan gələn zənginlikləri əsas götürməklə prinsipləşir. “Bir-birinə bənzəməyən folklor nümunələri formalaşmağa başladıqca, onların əhatə etdiyi mövzu dairəsi də zaman keçdikcə genişlənmiş, xalqın ideya və fikri öz bədii həllini həmin janrlarda tapmışdır” [6, s. 34]. Ədəbiyyatın yazılı qolu xalq yaradıcılığının ifadə modellərindən bəhrələnməklə uşaqların sirli-sehrli dünyasını əks etdirməyi və onları bir şəxsiyyət kimi tərbiyə etməyi qarşıya məqsəd qoyur.

**Nəticə**

XIX əsrin sonu − XX əsrin əvvəllərinin uşaq nəsri təkcə mövzu mündəricəsi ilə deyil, həm də məzmun xətlərinin poetexnoloji formulası, struktur konstruksiyası ilə xalq ədəbiyyatından gələnləri bir vasitə olaraq prinsipləşdirir. Nağıl, əfsanə, rəvayət, lətifə, təmsil, atalar sözü, məsəl, yanıltmac, uşaq oyunları kontekstində diqqət önünə gələn folklor yaradıcılığı müxtəlif aspektlər vasitəsilə yazılı ədəbiyyat mühitində orijinal düşüncə ilə səciyyələnir. R. Əfəndiyev, S. S. Axundov, A. Şaiq, S.M.Qənizadə, Ş. Əfəndiyeva kimi ədiblərin yaratdığı nəsr örnəkləri sintaktik fiqurların düzümü və formul mükəmməlliyi ilə əsaslı təsəvvür formalaşdırır. Bütün bunlar milli-mənəvi dəyərlərin aşılanması baxımından bir örnəyə çevrilir və məzmun mündəricəsi ilə ədəbi-mədəni prosesin uşaq nəsri müstəvisində dönməzliyini sərgiləyir.

**Ədəbiyyat**


1. *Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası*. (1998). Elm.
2. Bünyadzadə, C. (1911). Məktəbdə. *"Məktəb" jurnalı*, 3.
3. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı*. Maarif.
4. Əfəndiyev, R. (2006). *Seçilmiş əsərləri*. Şərq-Qərb.
5. Əfəndizadə, M. (1906). Bağdadlı Cəfərin hekayəti. *"Dəbistan" jurnalı*, 2.
6. Xəlil, Z., Əsgərli, F. (2011). *Uşaq ədəbiyyatı*. ADPU.
7. Məmmədov, M., Salamoğlu, T., Babayev, Y. (1998). *İki əsrin maarif işığında. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası.* Elm.
8. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. (1992). *Pedaqoji mühit və uşaq ədəbiyyatı*. Maarif.
9. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı*. Bakı Universiteti.
10. Seyidov, Ş. M. S. (1902). *Hekayəti-it və pişik*.
11. Talıbov, Y. R., Ağayev, Ə. A., İsayev, İ. N., Eminov, A. İ. (1993). *Pedaqogika*. Maarif.